# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA İDEAL DÖVLƏT

**Səadət Məmmədova**

*AMEA Elm Tarixi İnstitutu "Elmin sosial problemləri və elmşünaslıq" şöbəsinin elmi işçisi, sosiologiya elmləri doktoru*

*seadet75@yahoo.com*

İdeal dövlət konsepsiyası Nizami Gəncəvi yaradıcılığının əsas məqamlarından biri kimi nəzərə çarpır. İdeal dövlətin başlıca xüsusiyyəti ideal əxlaqi və sosial münasibətlərin bərqərar olması ilə bağlıdır. Nizami Gəncəvinin ideal dövlətində ideal dövlətin aparıcı qüvvəsi olan hökmdar müəyyən mənada ideal xüsusiyyətlərə malik şəxsiyyət, böyük sərkərdə, müdrik insandır. Məhz özünü filosoflarla əhatə edən, elm və təhsildə yüksək məqama çatmağa çalışan, sosial ədalətə və insanların rifahına yönələn hökmdarın idarə etdiyi cəmiyyət və dövlət ideal ola bilər.

Bu ideyadan çıxış edərək Nizami Gəncəvinin "Xəmsə"sində ayrı-ayrı hökmdarların şəxsi xüsusiyyətləri şərh və tənqid edilir, nəcib məqamların izahı təqdim edilir.

İdeal dövlət quruluşu hər zaman bəşəriyyətin daha yaxşı birgəyaşayış formasına inamı ilə bağlı konsepsiya olmuşdur. Xalıqn milli vəhdəti və yüksək özünü təşkilatlandırma bacarığını ehtiva edən dövlət idarəçiliyi və sosial tərəqqi istiqamətində davamlı axtarışlar ideal dövlət haqda fikirlərin formalaşmasına əsas olmuşdur. Tarixin bütün mərhələlərində insanlar daha yaxşı dövlət idarəçiliyinin ola biləcəyinə inanmış və ideal dövlətdə hökumət – vətəndaş münasibətlərinin və mükəmməl yaşam tərzinin mümkünlüyü ideyasını inkişaf etdirməyə çalışmışlar.

İdeal cəmiyyət və ədalətli dövlət axtarışlarına qədim Çin, Hindistan, Yaxın və Orta Şərq ölkələri mütəfəkkirlərinin konsepsiyalarında rast gəlmək olar. Hələ qədim Çində daosizm kamil cəmiyyət, dövlət və sosial münasibətlərə nail olmağın yolunu patriarxal sadəliklə bağlayırdı. Konfutsi isə öz paternalist-patriarxal dövlət konsepsiyasında ideal dövləti böyük bir ailə kimi təsvir edirdi və burada hər bir kəsin öz roluna məsuliyyətlə yanaşmasını vurğulayırdı. Motzısı isə "*bütün insanlar arasında təbii bərabərliyin bərqərar olması*" ideyasını inkişaf etdirmişdi.[1]

İdeal dövlətin mahiyyətindən doğan "sosial ədalət", "sosial bərabərlik" ideyaları Qədim yunan mütəfəkkirlərinin əsərlərində geniş təzahür tapmışdır. E.ə. VIII əsrdə Homerin "İlliada" və "Odessaya" əsərlərində ədalət "*insanların əsas hüququ*" kimi izah edilirdi. Yeddi müdriklərdən olan Solon ideal demokratik dövlət deyərkən "*varlılarla kasıblar arasında kompromisin tapılması, sosial bərabərlik*" ideyasını irəli sürürdü. E.ə. V yüzillikdə Pifaqor və pifaqorçular "*sosial ədalət və sosial bərabərlik*" ideyalarını inkişaf etdirdilər. Xalkedonlu Faley "*mülkiyyət bərabərliyini*" ideal dövlətin başlıca amili hesab edirdi. Hippod "*ideal dövlət quruluşu*", Yambul "Günəş şəhəri", Demokrit "*qarşılıqlı yardım, qardaşlığa söykənən dövlət birliyi*" ideyalarını təbliğ edirdilər. Sofistlər ideal dövlət quruluşunun əsasında "*xeyirxah vətəndaşların yetişdirilməsini*" görürdülər və ədalət, bərabərlik ideyalarını inkişaf etdirirdilər. Görkəmli mütəfəkkir Sokrat "*yaxşı dövlətin yaxşı qanunlarla və bilikli insanlar tərəfindən*

[1] Daha ətraflı bax: Рыков, С.Ю. Древнекитайская философия / С.Ю.Рыков. Москва: ИФРАН, 2012, 312 с.

*idarə edilməsinə*" inanırdı.[1] Platonun "Dövlət" və "Qanunlar" adlı əsərlərində təqdim edilən "*ideal dövlət – ədalətli, müdriklərin idarə etdiyi, şəxsi mülkiyyətin olmadığı, sosial bərabərliyə söykənən*" idarəçilik formasıdır.[2] Dövləti bütün münasibətlərdə vahid tam olaraq görən Aristotel[3] ədalət, azadlıq və bərabərlik, vətəndaş, hüquqlarla bağlı müzakirələr aparır, "*oliqarxiya və demokratiyanın qarışığı olan politeyanı çoxluq tərəfindən hamının rifahı naminə idarə edilən ən yaxşı dövlət idarəçiliyi*" kimi təqdim edirdi. E.ə. IV yüzillikdə Epikür "*azad insan – məsuliyyətli insan*" anlayışını inkişaf etdirir, "*dövləti ümumi rifaha nail olmaq məramı ilə insanlar arasında bağlanan razılaşmanın nəticəsi*" olaraq izah edirdi. Dövlətin altı əsas idarəetmə formasını təqdim edən Polibi demokratiyanı uğurlu nəticə olaraq vurğulayırdı.

Qədim Roma müəlliflərinin ideal dövlət və ideal cəmiyyətə dair düşüncələri Platon, Aristotel və digər yunan mütəfəkkirlərinin təsiri ilə formalaşmışdı. Mark Tuli Siseron dövlətə "*azad insanların ümumi maraqları əsasında yaranmış birlik*" tərifi verərək təkhakimiyyətliliyə qarşı çıxırdı, senat respublikası yaradılması fikrini irəli sürürdü.[4] Mark Avreli Antoni "*dövlətin bütün bəşərə bərabər hüquqlar verməsini*" təqdir edirdi. IV əsrdə Avreli Avqustin "İlahi şəhər" və "Azad iradə" adlı əsərlərində "*yerdə (Yer kürəsində) ideal dövlətin olmaması*" ideyasından çıxış edirdi.

XIII yüzillikdə Foma Akvinski öz əsərlərində göstərirdi: "*dövlətin başlıca məramı ümumi rifahın, hər kəsin ləyaqətli həyatının təmin edilməsidir*", lakin mütəfəkkir sosial bərabərliyi qəbul etmirdi.[5]

Orta əsrlərdə həm Qərbdə, həm də Şərqdə ideal dövlət konsepsiyaları geniş vüsət alır. Bu dövrdə Şərqdə Əl-Fərabi, ibn Rüşd, Nəsrəddin Tusi, İbn Xaldun və başqaları mükəmməl dövlət idarəçiliyini şərh etmişdilər. Platonun ideal dövlətindən təsirlənən Əl-Fərabi "*insanlara xoşbəxtlik verəcək* "*fəzilətli dövlət*" konsepsiyasını irəli sürmüşdü.[6]

Görkəmli mütəfəkkir Nizami Gəncəvinin "İskəndərnamə. Şərəfnamə" poemasında "*ideal dövlət ədalətli və sosial bərabərliyin hakim olduğu cəmiyyətə əsaslanan dövlət*" kimi təqdim edilir. Nizami Gəncəvi özünə qədər mövcud olan fəlsəfi fikirlər və filosoflar haqda dərin biliklərə malik mütəfəkkir olmuşdur və onun ideal dövlət konsepsiyası elmi əsası olmayan, utopik baxışlar toplusu deyildi. Sosial münasibətlərin dərin müşahidəçisi olan mütəfəkkir, analiz və sintez, tarixi müqayisəli təhlil vasitəsi ilə ideal dövlətin konturlarını müəyyənləşdirməyə çalışmışdır. Nizaminin ideal dövlət konsepsiyasında ilk diqqəti çəkən məqam hökmdarla bağlıdır. Böyük mütəfəkkir İsgəndəri dövlət başçısı kimi götürməklə yalnız cəmiyyəti və buradakı sosial münasibətləri deyil, həm də ideal dövləti idarə edə biləcək şəxsiyyətin də yüksək insani keyfiyyətlərə - cəsurluq, fatehlik, liderlik xüsusiyyətlərinə, xarizmaya, müdrikliyə, quruculuq bacarıqlarına və s. malik olmasına diqqəti yönəltmək istəyir. Belə demək olarsa, ideal dövləti idarə edəcək

[1] Daha ətraflı bax: Хрестоматия по философии / Под ред. Радугина А.А. Москва: Центр, 2001, 416

[2] Daha ətraflı bax: Платон. Сочинения: [в четырех томах] Санкт-Петербург: Изд-во С.-Петерб. ун-та ≪Изд-во Олега Абышко≫, 2007. Т. 3. Ч. 1, 752 с.

[3] Daha ətraflı bax: Аристотель. Сочинения: [В 4 т] / Аристотель. Москва: Мысль, 1983, Т. 4, с. 376-644.

[4] Daha ətraflı bax: Цицерон. О пределах блага и зла. Парадоксы стоиков. / Цицерон. Москва: РГГУ, 2000, 480 с.

[5] Daha ətraflı bax: Хрестоматия по философии / Под ред. Радугина А.А

[6] Daha ətraflı bax: Əbunəsr, Farabi. Məsələlərin mahiyyəti // Şərq fəlsəfəsi (IX-XII əsrlər) / tərt. ed. Z. C. Məmmədov. Bakı: BDU, 1999, 303 s.

şəxs yüksək əxlaqi və mənəvi xüsusiyyətlərə malik olan ədalətli hökmdar və sərkərdə olmalıdır. O, bütün ölkə vətəndaşlarının mədəni və sosial inkişafına çalışmalı və buna imkan yaratmalıdır.

*“Ədalət yolundan dönmərəm bir an*
*Yoxsula, məzluma olaram kömək”*[1]

İsgəndərin dili ilə Nizami Gəncəvi dövlət başçısının xalqın rifahı naminə çalışmalı olduğunu, istedadı olanlara, zəhmətkeş insanlara qayğı göstərməsini, hər kəsin yaşayış səviyyəsinin yüksəldilməsinə çalışmasını xüsusi olaraq vurğulayır.

Heç zaman heç bir hökmdardan və maddi həyatdan asılı olmayan, öz sadə həyatı ilə azad düşünərək, azad yaşamağı seçən mütəfəkkirin ideal dövlətində də vətəndaşların azadlığı başlıca məqam kimi təqdim edilir. İsgəndəri elm və biliklərə sahib, müdrik insanlarla məsləhətləşən bir hökmdar olaraq təqdim edən Nizami Gəncəvinin diqqət verdiyi xüsusi məqamlardan biri də İsgəndərin hamı və hər kəslə öz dilində danışa bilmək, dil tapmaq bacarıqlarıdır. Nizaminin İsgəndəri müdriklərlə müdrik, hökmdarlarla hökmdar, sadə zəhmətkeş insanlarla bir yoldaş kimi söhbət edir. Ayrı-ayrı tayfa və xalqları öz hakimiyyəti altında birləşdirən İsgəndər sosial ədalətin xüsusi bir göstəricisi olan hər cür ayrı-seçkilikdən uzaqdır. O, insanlara ağlına, bacarığına, yüksək mənəvi-əxlaqi keyfiyyətlərinə görə qiymət verir. İsgəndərin dövlət idarəçiliyini təsvir etməklə Nizami Gəncəvi idarəçilik əxlaqı prinsiplərini təqdim edir və burada ilk olaraq hökmdarın bir nümunə kimi təqdim edilməsinə çalışır. Nizaminin İsgəndəri böyük fateh olsa da dünya nemətlərinə həris deyil, insani münasibətlərə daha çox üstünlük verən və daim axtarışda olan bir şəxsiyyətdir.

Nizaminin ideal hökmdar və ideal dövlət konsepsiyasının digər bir məqamı Bərdə hökmdarlığı ilə bağlıdır. İsgəndəri bir çox dünya dövlətlərinin başçıları ilə qarşılaşdıran, onların idarəçilik formalarını və şəxsi keyfiyyətlərini, sadə xalqla qarşılıqlı münasibətlərini müqayisə etməyə çalışan Nizami Gəncəvi öz dövrü üçün yeni və gözlənilməz olan hökmdar tipini təqdim edir. Bu, Nüşabədir. O, qadındır. Nüşabə hökmdara və qadına xas ən yüksək mənəvi-əxlaqi keyfiyyətləri özündə birləşdirməyə nail olmuşdur. Burada Nizami yaradıcılığında ayrı-seçkiliyə daha bir etiraz görmək olur. Mütəfəkkir orta əsrlərdə qadına patriarxal münasibət düşüncəsinə qarşı çıxır. Qadının da hökmdarlıq etmək bacarıqlarının olduğunu və bu istedadının kişilərdən daha üstün olduğunu göstərir. Belə ki, İsgəndər Nüşabəni aldadıb bir elçi olduğunu söyləyəndə rəsmini ona göstərərək İsgəndəri tanıdığını bildirən hökmdar xanım İskəndəri pərtlikdən qurtarmaq üçün də tədbirlə hərəkət edir. Təmkinlə İsgəndərə böyük hörmətinin və pərəstişinin olduğunu bildirir, öz taxtından düşərək yerini İsgəndərə təqdim edir, bununla da iki hökmdar arasında yarana biləcək ədavətin qarşısını almış olur. Nüşabənin müdrikliyi özünü həm də İsgəndərə açdığı süfrədə görsənir. İsgəndər üçün süfrə açan Nüşabə ləl-cavahiratın, qızılın müəyyən məqamlarda heç bir dəyər kəsb etmədiyin göstərir.

Şair Nüşabənin hökmdarlıq etdiyi dövlət haqqında danışarkən burada olan sosial nizamın və insanlar arasında ideal münasibətlərin olması haqqında məlumat

[1] Nizami Gəncəvi. İskəndərnamə, s. 182

verir. Nizaminin ideal dövlətində sosial ədalət və əmin-amanlıq hökm sürür.

Azərbaycandan, Bərdədən sonra öz fəthlərini davam etdirən İsgəndərin bir hökmdar və bir filosof kimi yetişmə məqamlarını təsvir etməyə çalışan Nizami Gəncəvi onun həyatının qısa tarixçəsini verir. İsgəndəri ideal bir filosof hökmdar kimi təqdim edən mütəfəkkir onun dövrünün görkəmli filosoflarından dərs aldığını, müdrikləşərək peyğəmbər səviyyəsinə yüksəldiyini göstərir. Belə nəticəyə gəlmək olar ki, Nizami Gəncəvi ideal dövlətdə həm sərkərdə, həm də filosof və peyğəmbər xüsusiyyətlərinə malik olan şəxslərin hakimiyyətdə olmasını, ideal hökmdarların özlərini filosoflarla əhatə etməsini və öz idarəçiliyində onların məsləhətlərindən yararlanmasını vacib şərt kimi təqdim edir. “İqbalnamə”də Nizami Gəncəvi bir daha fikir plüralizminin, azadfikirliliyin, sosial ədalətin, ayrı-ayrı sosial təbəqələr arasındakı münasibətlərin tənzimlənməsində sosial bərabərliyə və bərabər imkanlara xüsusi diqqət yetirilməsini vurğulayır. Bütün bu nailiyyətlərin əsasında isə elmli, bilikli, təhsilli sosiumun formalaşdırılmasını görür. Onun xoşbəxtlər ölkəsində təhsilli və müdrik insanlar dövləti idarə edərək, digər insanların xoşbəxt yaşamasını təmin etməyə çalışırlar. Beləliklə, Nizami Gəncəvinin bütün yaradıcılığının ana xəttini təşkil edən elm, təhsil səviyyəsinin yüksəldilməsi xoşbəxtliyin mənbəyi olaraq təqdim edilir. Nizamiyə görə elmli insanlar yaxşı – pis, xeyir – şər, ədalət - ədalətsizlik, müharibə - sülh və digər əxlaqi kateqoriyaların mahiyyətini dərk edərək, özlərinin və bəşəriyyətin rifahına çalışırlar. Savadsızlıqdan doğan zülmət isə yer üzündə şərin mənbəyi olaraq çıxış edir.

Belə demək olarsa, Nizami Gəncəvi bilik cəmiyyəti və burada insanlar arasında mövcud münasibətlər şərhlər verməyə çalışmışdır.

**ƏDƏBİYYAT**


1. Əbunəsr, Farabi. Məsələlərin mahiyyəti // Şərq fəlsəfəsi (IX-XII əsrlər) / tərt. ed. Z. C. Məmmədov. Bakı: BDU, 1999, 303 s.
2. Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. Bakı: Lider, 2004, 256 s.
3. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı: Adiloğlu, 2011, 335 s.
4. Аристотель. Сочинения: [В 4 т] / Аристотель. Москва: Мысль, 1983, Т. 4, с. 376-644.
5. Платон. Сочинения: [в четырех томах] Санкт-Петербург: Изд-во С.-Петерб. ун-та ≪Изд-во Олега Абышко≫, 2007. Т. 3. Ч. 1, 752 с.
6. Рыков, С.Ю. Древнекитайская философия / С.Ю.Рыков. Москва: ИФРАН, 2012, 312 с.
7. Хрестоматия по философии / Под ред. Радугина А.А. Москва: Центр, 2001, 416
8. Цицерон. О пределах блага и зла. Парадоксы стоиков. / Цицерон. Москва: РГГУ, 2000, 480 с.